**UOT 327**

# 2015-Cİ İLİN NARDARAN HADİSƏLƏRİ İRANDAKIRADİKAL DAİRƏLƏRİN DİNİQRUPLARVASİTƏSİLƏ AZƏRBAYCANIN DAXİLİSİYASƏTİNƏMÜDAXİLƏ ETMƏK CƏHDİ KİMİ

**Eldar ƏMİROV***

***Açar sözlər:*** *Azərbaycan, Nardaran hadisələri, İran, radikal dairələr, şiəlik.*

## Giriş

2015-ci ilin 26 noyabr tarixində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Milli Təhlükəsizlik Nazirliyinin Bakının Nardaran qəsəbəsində radikal dini qrupun zərərsizləşdirilməsi məqsədilə keçirilmiş əməliyyatın nəticələri ölkəmizdə bu sahədə hələ də ciddi problemlərin olduğunu əyani şəkildə nümayiş etdirdi. Saxlanılarkən həmin şəxslərin hüquq-mühafizə orqanlarının əməkdaşlarına göstərdikləri silah müqavimət nəticəsində 2 polis əməkdaşı həlak olmuşdu. Güc strukturları nümayəndələrinin cavab atəşi isə qarşı tərəfdən 4 nəfərin ölümü, bir neçə nəfərin isə yaralanması ilə nəticələmişdi. Qarşıdurma zamanı güllə yarası alan digər Nardaran sakini isə bir neçə gün sonra dünyasını dəyişmiş və bununla da atışma qurbanlarının ümumi sayı 7 nəfərə yüksəlmişdir. Həmçinin əməliyyatın gedişində Taleh Bağırzadə olmaqla sözügedən dini qrupun 14 üzvü həbs edilmişdir **[4].** Daxili İşlər Nazirliyinin məlumatına əsasən növbəti günlərdə Taleh Bağırzadənin rəhbəri olduğu "Müsəlman birliyi" təşkilatı ilə əlaqəsi olan digər şəxslərin müəyyən edilməsi istiqamətində bütün ölkə ərazisində həyata keçirilən tədbirlər nəticəsindədaha 18 nəfər saxlanılmış və beləliklə də proseslə əlaqədar həbs edilənlərin ümumi sayı 32-ə çatmışdır **[9].** Doğrudur, 2017-ci ilin sentyabrında məhkəmənin barələrində həbs qəti imkan tədbiri seçdiyi həmin şəxslərdən 14 nəfər əfv edilərək azadlığa buraxıldı. Lakin "Müsəlman birliyi" hərəkatının lideri T.Bağırzadəyə və onun yaxın silahdaşı Abbas Hüseynov məhkəmənin qərarı ilə 20 il müddətinə azadlıqdan məhrum edildi. Üstəlik bu hökmə oların bu müddətin ilk 7 ilini xüsusi rejimli cəzaçəkmə müəssisəsində keçirmələrinə dair müddəa da əlavə olundu **[5].**

Doğrudur, buna qədər də Nardaran qəsəbəsində hüquq-mühafizə orqanlarının əməkdaşları ilə yerli sakinlər arasında qanlı insidentlər baş vermişdir. Xüsusilə 2002, 2003 və 2005-ci illərdə baş verən hadisələr ölkə miqyasında ciddi narahatlıqla qarşılanmışdı. Lakin göstərilən insidentlərin heç biri dini – ideoloji çalara malik olmamış, kriminal, yaxud sosial etiraz səciyyəsi daşımışdır.

## 1. İrandakı dini dairələrin Nardaran hadisəsinə reaksiyası nədən xəbər verirdi?

2015-ci ilin noyabr hadisələri göstərdi ki, Nardaran qəsəbəsi yalnız sosial gərginlik mənbəyinə deyil, həm də dünyəvi quruluşa, baxışlar sisteminə müqavimət göstərən ideoloji mərkəzə çevrilməkdədir. 26 noyabr günü baş verənlər ölkə ictimaiyyətinin diqqətini növbəti dəfə Nardarana cəlb etməklə yanaşı, həm də İrandakı bəzi radikal düşüncəli dairələrin Azərbaycana münasibətdə tutduqları mövqeyə dair mövcud şübhələri bir qədər də dərinləşdirmiş oldu. Doğrudur, həmin günlərdə Tehran rəsmiləri təkidlə Nardaranda baş verən hadisələrlə İranın hər hansı bağlılığını inkar edən bəyanatlar yayaraq, baş verənləri Azərbaycanın daxili işi kimi səciyyələndirmişdilər. Məsələni məhz bu cür şərh edən İran parlamentinin sədri Əli Laricani hətta bəzi KİV –ləri iki ölkə arasıdakı dostluq münasibətlərini məqsədli şəkildə korlamaqda ittiham etməyi də unutmamışdı **[2].** Lakin İranın rəsmi dairələrinin bəyanatlarının əksinə olaraq bu ölkənin dini rəhbərliyinə yaxın olan bəzi ruhanilər öz bəyanatlarında nəinki "Müsəlman birliyi"hərəkatının fəaliyyətinə haqq qazandırmağa çalışdılar, üstəlik Azərbaycanı inanclı insanları təqib etməkdə günahlandırmaqdan belə çəkinməli-

**Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dillər Universiteti*
*e- mail: eldar.ado.85@mail.ru*

dir. Məsələn, Nardaran hadisələrilə bağlı Azərbaycan prezidenti İlham Əliyevə açıq məktub ünvanlayan nüfuzlu İran ruhanisi, ölkənin ali dini rəhbəri və faktiki hakimi Ayətullah Əli Xamneinin yaxın ətrafında daxil olan təbrizli ayətullah Cəfər Sübhani polisi Nardaranda inanclı insanlara qarşı zorakılığa yol verməkdə, yerli əhalinin dini hislərini təhqirə məruz qoymaqdan ittiham etmişdi. Öz məktubunun sonunda isə o, baş verənlərlə əlaqədar dərhal hüquqi tədbirlərin görülməsi, günahkarların cəzalandırılması tələbini irəli sürmüşdür**[8].** Nüfuzlu İran ruhanilərinin Nardaran hadisələrinə reaksiyası bununla kifayətlənmədi. Təbrizin imam-cüməsi ayətullah Möhsün Şəbüstəri isə Azərbaycan hökumətindən tutulanların dərhal azad edilməsini tələb edən bəyanatla çıxış etmiş, ruhanilərlə kobud rəftarın dayandırılmasını istəmişdi **[7].**

2015-ci ilin 10 dekabrında isə Azərbaycan Respublikasının Təbriz şəhərindəki konsulluğu qarşısında yığışan yüzlərlə insan dini şüarlar səsləndirərək, Nardarandakı əməliyyatı şiələrin dini hislərinə yönəlmiş hücum olaraq gördüklərini bildirdilər. Həmçinin onlar Azərbaycan hakimiyyətindən həbs edilənlərin azadlığa buraxılmasını istəmiş, baş verənləri dinə hücum kimi qınadıqlarını bəyan etmişdilər **[6].** Təbii ki, əgər İran siyasi quruluşu etibarı ilə teokratik deyil, dünyəvi dövlət olsa idi, o zaman sözügedən ruhanilərin fikirlərini bir ovuc din xadiminin mövqeyi kimi səciyyələndirmək mümkün olardı. Lakin İranın dini dövlət olduğu bilinən həqiqətdir və bu fakt onun ana qanunda – konstitusiyasında təsbit edilmişdir. Kostitusiyanın birinci maddəsində qeyd edilmişdir ki, İrandakı idarəçilik sistemi İslam respublikasıdır **[11].** Belə olantəqdirdə İranda real hakimiyyətin ölkənin ali dini rəhbərinin və onun başçılıq etdiyi dini dairələrin əlində cəmləşdiyi və Nardaran hadisələri haqqında yuxarıda adları çəkilən ayətullahların verdikləri bəyanatların əslində, Tehranın gercək mövqeyini əks etdirməsi danılmaz bir həqiqətə çevrilir. Bəs İrandakı dini dairələrin, daha dəqiq desək bu ölkədəki həqiqi iqtidar sahiblərinin belə bir mövqedən çıxış etməsi nə ilə izah oluna bilər?

## 2. İranın Azərbaycanda İslam inqilabı dəyərlərinin ixracı üçün sosial baza formalaşdırmaq xətti: müstəqillik tariximizin təcrübəsi

Qoyduğumuz suala əsaslı şəkildə cavab tapmaq üçünbiz ilk növbədə İranın 1979-cu ilin İslam İnqilabından sonrakı xarici siyasətinin başlıca geosiyasi və ideoloji qayəsini yada salmalıyıq. Heç kəs üçün sirr deyil ki, ideoloji qayə dedikdə "İslam inqilabının ixracı", geosiyasi qayə dedikdə isə İranın söz sahibi olacağı məkanın "şiə zolağının" təşkili nəzərdə tutulmaqdadır. İran 1979-cu ildən bu yana şiələrin yaşadıqları, xüsusilə də onların çoxluq təşkil etdikləri ölkələrə münasibətdəki siyasətini məhz bu iki prinsip üzərində qurmağa çalışmışdır. Qeyd etmək lazımdır ki, "İslam inqilabının ixracı" prinsipi 1979-cu il İran İslam İnqilabının rəhbəri və bu ölkənin ilk dini lideri Ayətullah Ruhulla Xomeyninin siyasi-ideoloji təliminin xarici siyasətlə bağlı təməl ideyasından qaynaqlanır: *"Biz dünyadakı bütün məzlumları dəstəkləməliyik. Biz inqilabımızın prinsiplərinin bütün dünyaya ixrac edilməsi naminə səylərimizi səfərbər etməli və inqilabımızın ixrac edilməli olmadığına dair bütün fikirləri bir kənara atmalıyıq. Çünki, İslam dini müsəlman ölkələri arasında ayrıseçkiliyə yol vermir və dünyadakı bütün məzlumların müdafiəsinə qalxır"* ***[10; s. 187].***

Əgər 1991-ci ilədək İranın sözügedən prinsipləri yeritmək üçün çalışdığı coğrafiya əsasən Fars körfəzi ölkələrini, Yəməni və Livanı əhatə edirdisə, SSRİ-nin süqutundan sonra bu məkanın müsəlman dövlətləri, xüsusilə də şiəlik ardıcıllarının üstünlük təşkil etdiyi Azərbaycan da Tehranın həyati maraqlar arealına daxil oldu. Müqayisə üçün bildirmək lazımdır ki, İran 1979-cu ildən bu tərəfə qeyd edilən fəaliyyət istiqamətində Yaxın və Orta Şərqin bir sıra ölkələrində kifayət qədər böyük uğurlar qazanmağa nail olmuşdur. Livanda ötən əsri 80-ci illərində təşəkkül tapan və sonradan silahlı müqavimət hərəkatına çevrilmiş "Hizbullah" təşkilatını, Yəməndəki husi üsyançılarının "Ənsar Allah" hərəkatını, həmçinin İraqdakı və Bəhreyndəki müxtəlif şiə təşkilatlarını misal göstərmək mümkündür.

Yerigəlmişkən, bir vacib məqamı da xatırlatmaq istəyirəm ki, Azərbaycan İranın din amili vasitəsilə daxili siyasətinə müdaxilə etmək istədiyi yeganə postsovet ölkəsi deyil. 2017-ci ildə İranla Tacikistan arasında yaranan siyasi qalmaqalı xatırlamaq kifayətdir. Həmin vaxt tacik rəsmiləri İranı

ölkədəki islamçı qruplar vasitəsilə siyasi vəziyyəti gərginləşdirməkdə, müxalifətdə olan qüvvələrə açıq şəkildə maddi və hərbi dəstək göstərməkdə ittiham etmişdi. Hətta həmin günlərdə İranın Tacikistanda SSRİ-nin süqutundan sonra bu istiqamətdəki fəaliyyətini əks etdirən sənədli film də Tacikistanın dövlət televiziyasının efirində yayımlamışdı. **[12]** İranın Azərbaycandakı dini-ideoloji aktivliyi müstəqilliyin ilk illərindən etibarən özünü göstərməyə başlayıb.

Altay Göyüşov və Kənan Rövşənoğlunun qeyd etdikləri kimi Azərbaycanda şiəlik ideyalarına əsaslanan ilk ictimai təşkilatın formalaşması Meydan hərəkatı dövrünə, daha dəqiq desək, 1989-cu ilə təsadüf edir. “Tövbə cəmiyyəti”adlanan həmin təşkilatın rəhbəri Hacı Əbdül Əbdülov idi. İlk vaxtlar 70 illik ateizm mühitindən çıxan Azərbaycan cəmiyyətində böyük maraq doğuran təşkilat çox keçmədən öz populyarlığını itirir. ***[1].***

Yaranmış boşluğu 1992-ci ildə rəsmən qeydiyyat keçən Azərbaycan İslam partiyası doldurmağa çalışır. Partiyanın sədri vəzifəsinə Nardaran qəsəbəsindən olan Hacı Əlikram Əliyev adlı şəxs seçilir. “İslam dünyası” və “İslamın səsi” adlı qəzetləri olan sözügedən partiya da öz sələfi kimi cəmiyyətdə ciddi ictimai-siyasi qüvvəyə çevrilə bilmir. Bunun təbii öz obyektiv və subyektiv səbəbləri var idi. Cəmiyyətin dini təmayülə, o cümlədən də şiəliyə marağının azalmasını şərtlədirən ən başlıca amil isə heç şübhəsiz ki, 1992-ci ilin mayında AXC-Musavat koalisiyasının Azərbaycanda hakimiyyətə gəlməsi idi. Azərbaycan xalq hərəkatının lideri və ölkənin o zamanki prezidenti Ə.Elçibəy (Əliyevin) bir illik iqtidarı dövründə türkçülük, turançılıq məfkurəsinin dövlət ideologiya səviyyəsinə yüksəlməsi müvəqqəti də olsa dinə söykənən baxışlar sistemini kölgəyə sıxışdırılması ilə nəticələndi. Vəziyyət köklü şəkildə yalnız 1993-cü ilin iyun qiyamından və Ə.Elçibəyin devrilməsindən sonra dəyişməyə başladı. Bir tərəfdən cəmiyyətdə millətçilik zəminində baş qaldırmış eyforiyanın səngiməsi, digər tərəfdən isə prezident Heydər Əliyevin qonşu dövlətlərlə, o cümlədən də İranla münasibətlərin normallaşdırılması istiqamətində atdığı ardıcıl addımlar fərqli baxış və dünyagörüşlərinin yayılması üçün münbit şərait yaratmış oldu.

Təbii ki, Azərbaycandakı sosial dayaqlarını möhkəmləndirməkdə maraqlı olan bütün xarici qüvvələr kimi İranda bu məsələdə fəallıq göstərirdi. Aydındır ki, yenə də İranın Azərbaycandakı başlıca effektiv təsir vasitəsi qismində məzhəb amili, yəni şiəlik çıxış edirdi. Tehran bütün təbliğatını məhz bu amilə söykənməklə həyata keçirirdi. İran özünə loyal sosial bazanın yaradılması üçün ilk növbədə ciddi dini liderlərin, yetişdirilməsində, şiə icmasının davranışlarına yön verə biləcək ruhanilərin fəaliyyətində maraqlı idi. Bu baxımdan İran bu ölkədə dini təhsil almağa maraq göstərən gəncləri hər vəchlə təşviq edir, eyni zamanda İçərişəhərdəki Cümə məscidi icması mərkəz olmaqla şiə icmasının təşkilatlanmasına çalışırdı. Sonralar Cümə məscidinin imamı olacaq və icmanın faktiki liderinə çevriləcək Hacı İlqar İsmayılzadə məhz həmin dövrdə İran təhsil alaraq vətənə dönən gənclərdən biri idi. Bu günədək Azərbaycanda Əli Xamneinin şəxsi nümayəndəsi qismində fəaliyyətini davam etdirən və şiə icmasının təşkilatlanması istiqamətində ciddi iş aparmış göstərən Əli Əkbər Ocaqnejadın ölkəmizə gəlməsi də həmin dövrə təsadüf edir. **[1]** Doğrudur, 1995-ci ildə Azərbaycanda fəaliyyət göstərən İslam partiyası ləğv edilsə də, bu İranın özünə loyal qüvvələri təşkilatlandırma prosesini dayandırmadı. Ədalət naminə qeyd etmək lazımdır ki, prezident Heydər Əliyev kənar təsirlər altında təşəkkül tapan dini qrup və cərəyanlardan qaynaqlanan təhlükənin miqyasını olduqca dəqiq qiymətləndirirdi. İranın Azərbaycanda dini təbliğat sahəsində gedən proseslərdə inhisarçılığının qarşısını almaq üçün hökumət Türkiyəyə bağlı dini maarifçilik və təhsil fəaliyyətlərinin genişlənməsi üçün zəruri olan addımları atmağa qərar verdi. Zaman göstərdi ki, vaxtında edilmiş bu gediş həm dini təhsil, həm də təbliğat sahəsində zəruri balansın əldə edilməsində faydalı oldu.

Epizodik çıxışlara və bəyanatlara baxmayaraq şiə icması mütəşəkkil qüvvə kimi 2003-cü ilin prezident seçkilərinə qədər Azərbaycanda gedən siyasi proseslər hər hansı formada müdaxilə etmirdi. 2003-cü ilin payızında seçki prosesinin aktivləşdiyi bir vaxt İçərişəhər Cümə məscidi icması açıq şəkildə müxalifətin namizədi İsa Qəmbərin namizədliyini dəstəklədiyini bildirdi. Ölkənin hüquq-mühafizəorqanlarının məlumatlarına əsasən seçkilərin nəticələri elan edildikdən və İlham Əliyevin ölkə prezidenti olacağı bilindikdən sonra icmanın nümayəndələri müxalifət fəalları ilə birgə 15-16

oktyabr 2003-cü il tarixində Bakıda hökumət əlehinə baş qaldıran iğtişaşlara qatılırlar. İğtişaşlar yatırıldıqdan sonra icmanın bir çox üzvü kimi, onun rəhbəri İlqar İbrahimoğlu da saxlanılaraq məhkəmənin qərarı ilə 5 il müddətinə azadlıqdan məhrum edilir. Həbsdən çıxdıqdan və 2012-ci ildə Avropa İnsan haqları məhkəməsinin qərarı ilə Azərbaycan məhkəməsinin onun barəsindəki hökmü ədalətsiz elan edildikdən sonra İ.İbrahimoğlu ilahiyyatçı kimi öz fəaliyyətini davam etdirsə də, siyasətdən tamamilə uzaqlaşır. Bu hadisələrdən sonra uzun müddət İrana loyal olan dini qrupların siyasi proseslərdə iştirakına,yaxud dövlətin qəbuletdiyi qərarlara qarşı onların açıq-aşkar etirazına təsadüf edilmir.

Bu qrupların ictimai-siyasi aktivliyinin növbəti mərhələsi 2010-2011-ci illərə təsadüf edir və sözügedən proses daha çox İranda və İraqda dini təhsil alaraq vətənə qayıtmış Hacı Taleh Bağırzadənin adı ilə bağlı olur. 2010-cu ildə respublikanın o vaxtki təhsil naziri qızların hicabla dərsə gəlmələrini qadağan edən qərar qəbul etməsi dini dairələrin, xüsusilə də İrana bağlı qrupların aktivləşməsinə səbəb olur. Əvvəlcə 2011-ci ilin may ayında, daha sonra isə 2012-ci ilin oktyabrında bir qrup şəxs tərəfindən Bakı şəhərində, o cümlədən Təhsil nazirliyinin qarşısında etiraz aksiyaları təşkil edilir. Taleh Bağırzadənin özü 2011-ci ilin may aksiyasında saxlanılır və 1 il yarım müddətində həbsdə qalır. 2012-ci ilin sonunda azadlığa çıxsa da, 2013-cü ilin martında öz moizlərində siyasi hakimiyyətin ünvanına səsləndirdiyi kəskin fikirlərdən dolayı yenidən həbs olunur ***[3].***

Onun növbəti həbsi isə yuxarıda da göstərildiyi kimi2015-ci ilin noyabr hadisələri zamanı baş verir. Məlum Nardaran hadisələrinə qədər o oxuduğu bir neçə moizədə hökumətin daxili və xarici siyasətini sərt şəkildə tənqid etmiş həmçinin, həmin ilin yayında Bakıya səfərə gəlmiş nüfuzlu İran ruhanisi Nuri Həmədanini Azərbaycandakı şiə icması ətrafındakı proseslərə müdaxilə etməyə çağırmışdı. T.Bağırzadənin həbsindən və Nardaran hadisələrinin fəal iştirakçılarını saxlanılmasından sonra İrana loyal qrupların aktivliyi nəzərəçarpacaq dərəcədə azalsa da, 2018-ci ilin 10 iyulunda Gəncədə iki polis zabitinin öldürülməsilə nəticələnən qarşıdurma gərginlik zemininin hələ sonadək aradan götürülmədiyini göstərir.

**Nəticə**

Ötən əsrin 90-cı illərində və son 15 ildə cərəyan edən proseslərin təhlili göstərir ki, ölkədə İrandakı bəzi radikal dairələrin bütün cəhdlərinə baxmayaraq Azərbaycanda ölkənin dünyəvi inkişaf xəttinə qarşı çıxacaq güclü sosial bazanın formalaşdırılması cəhdləri gözlənilən nəticəni verməmişdir. Ölkə əhalisinin cüzi bir hissəsi İranın radikal dairələri tərəfindən ötürülən baxışlar sistemini qəbul edib ona reaksiya verir. Azərbaycan cəmiyyətinin əhəmiyyətli bir qismi üçün dünyəvi inkişaf yolu və milli maraqlara bağlılıq dini, xüsusilə də İrandan ixrac edilən məzhəb təəsübkeşliyindən daha üstün, daha məqbuldur. Xüsusilə də İran rəhbərliyinin Qarabağ münaqişəsinə münasibətdəapardığı ikibaşlı siyasət (bir tərəfən Azərbaycanın ərazi bütövlüyünün tanınmasına dair verilən formal bəyanatlar, digər tərəfdən isə işğalçı Ermənistanla və qondarma Dağlıq Qarabağla geniş əlaqələrin saxlanması) fonunda Tehranın müsəlman qardaşlığı və vəhdəti haqqındakı çağırışları olduqca gülünc səslənir. Əminliklə deyə bilərik ki, Azərbaycanda dünyəvi dunyagörüşünün və inkişaf yolununhələ uzun müddət ciddi alternativi olmyacaqdır.

Lakin bu əminlik bizdə qətiyyən arxayınlıq yaratmamalıdır. Radikal baxışlar və addımlar üçün münbit zəmin təşkil edən bütün nöqtələrzərərsizləşdirilməlidir, özü də güc yolu ilə yox maarifləndirmə və sosial inkişaf vasitəsilə. Məsələn, radikal ünsürlər tərəfindən daim gərginlik və qarşıdurma məkanına çevrilən Nardaran qəsəbəsinin həyati əhəmiyyətə malik sosial çətinliklərinin aradan qaldırılması üçün ardıcıl, məqsədyönlü tədbirlər görülməlidir. Qəsəbə ölkənin sosial-iqtisadi inkişafı prosesinə lazımi şəkildə qoşularaq bundan öz payını almalıdır. Paralel olaraq həqiqi dini dəyərlərin təbliği və əhaliyə çatdırılması üçün ali savadlı, mütərəqqi təfəkkürlü ilahiyyatçılar da prosesə cəlb edilməli, İslamla xurafat arasındakı sərhədlər ictimaiyyətə elmi şəkildə izah olunmalıdır. Dini duyğuları xüsusilə həssas vətəndaşlarımıza izah edilməlidir ki, müasir inkişafa təhdid İslamdan

yox, inanc pərdəsi altında şüurlara yeridilən cəhalət, xurafat, məzhəbçilik, təfriqəçilik kimi təhlükəli anlayışlardan qaynaqlanır. Həqiqi dini dəyərlər və onlara bağlılıq isə əksinə, cəmiyyətin mənəvi-əxlaqi təkamülü üçün olduqca zəruri, faydalıdır. Həmin dəyərləri biz özümüz öyrənməli, dərk etməli və həyatımıza tətbiq etməliyik. Azərbaycanda yerli ilahiyyatçılar məktəbi elmi əsaslar əsasında təşəkkül tapdıqca kənar dağıdıcı ünsürlərin təsirləri də bir o qədər azalacadır. Din hər zaman maraqlı dairələr üçün ictimai-siyasi manipulyasiya aləti olaraq böyük maraq kəsb edib, bu bilinən bir həqiqətdir. Ancaq o da danılmaz həqiqətdir ki, mütərəqqi cəmiyyətlər yüksək təhsil, elm və sosial inkişaf hesabına özlərini bu təhdidlərdən kifayət qədər uğurla sığortalamağı bacarıblar. Azərbaycan da bu mənada istisna təşkil etməməli, həmin təcrübəni diqqətlə öyrəib tətbiq etməlidir.

## ƏDƏBİYYAT


1. Göyüşov A., Rövşənoğlu K. Postsovet dövründə Azərbaycanda siyasi şiəliyin tarixi // Baku Research Institute. -https://bakuresearchinstitute.org/az/a-history-of-political-shiism-in-post-soviet-azerbaijan/
2. APA İ.A. 01/12/2015- https://apa.az/az/xarici_siyaset/xeber_eli_laricaninardaran_hadiseleri_azer_-406725
3. Azadlıq Radiosu – 02/12/2015http://web.archive.org/web/20151201224645/http://www.azadliq.org/content/article/24946855.html
4. AZERTAG – 26/11/2015 -https://azertag.az/xeber/905686
5. BBC News – Azərbaycanca – 25/01/2017 - https://www.bbc.com/azeri/international-38715240
6. BBC News – Azərbaycanca – 10/12/2015 - https://www.bbc.com/azeri/azerbaijan/2015/12/151210_tabriz_nardaran_protests
7. SAHAR – AZERI – 30/11/2015 -https://azeri.sahartv.ir/news/az%C9%99rbaycan-i200253t%C9%99briz_v%C9%99_%C6%8Frd%C9%99bilin_imamc%C3%BCm%C9%99l%C9%99ri_nardaran_bar%C9%99d%C9%99
8. SAHAR – AZERI – 23/12/2015 - https://azeri.sahartv.ir/news/az%C9%99rbaycan-i201169ay%C9%99tullah_s%C3%BCbhaninin_az%C9%99rbaycan_respublikas%C4%B1_prezidentin%C9%99_m%C9%99ktubu
9. TREND İ.A.– 02/12/2015 - https://az.trend.az/azerbaijan/politics/2464282.html
10. МанучихриА. Политическая система Ирана. Санкт-Петербург, 2007.
11. Конституция Ирана // https://constitutions.ru/?p=140
12. Радио Озоди, 17/08/2017 -https://rus.ozodi.org/a/28682377.html

## *РЕЗЮМЕ*

***Эльдар Амиров***

### *Нардаранские события 2015 года как попытка вмешательства радикальных кругов Ирана во внутреннюю политику Азербайджана посредством религиозных групп*

***Ключевые слова:*** *Азербайджан, Нардаранские события, Иран, радикальные круги, шиизм.*

В статье автором проанализирован характер Нардаранских событий 2015 года в общем контексте непрекращающихся с момента распада СССР со стороны некоторых радикальных кругов попыток экспортировать в Азербайджан ценности и принципы иранской исламской революции 1979 года. Автор на примере многочисленных фактов из новейшей истории Азербайджана дает обзор данной политики радикальных кругов Ирана в отношении Баку, указывая на два основополагающих принципа, определяющих эту линию, – принцип экспорта исламской революции и принципа формирования так называемой шиитской полосы, геополитического пространства с военно-политическим доминированием Тегерана. Сравнительный анализ иранской религиозной политики и общественно-политических и мировоззренческих настроений азербайджанского общества приводит автора к заключению о том, что светские ценности в Азербайджане достаточно сильны и общество в целом не видит альтернативы демократическому и светскому государству. Однако, по мнению автора, деятельность по устранению даже той малой социальной базы, благоприятствующей распространению радикальных элементов должны и дальше осуществляться путем просвещения и решения социальных вопросов.



## *SUMMARY*

***Eldar Amirov***

### *Nardaran Events of the 2015 as an Attempt to Intervene Radical Circles of Iran in the Internal Policy of Azerbaijan Through Religious Groups*

***Keywords:*** *Azerbaijan, Nardaran events, Iran, radical forces, Shiism.*

İn the article, the author analyzes the nature of the Nardaran events of 2015 in the general context of the attempts, which have been ongoing since the collapse of the USSR by some radical circles, to export the values and principles of the 1979 Islamic Iranian revolution to Azerbaijan. The author, on the example of numerous facts from the recent history of Azerbaijan, gives an overview of this policy of Iran's radical circles in relation to Baku, pointing out two fundamental principles defining this line - the principle of exporting the Islamic revolution and the principle of forming the so-called Shiite strip, a geopolitical space with military-political dominance Tehran. A comparative analysis of Iranian religious policy and the socio-political and ideological sentiments of Azerbaijani society leads the author to the conclusion that secular values in Azerbaijan are strong enough and society as a whole does not see an alternative to a democratic and secular state. However, according to the author, the efforts to eliminate even that small social base conducive to the spread of radical elements should continue to be carried out by educating and resolving social issues.